# Dubay (BƏƏ) Məhkəmələri Departamentinin nümayəndə heyətinin üzvləri Qəbələdə

Birləşmiş Ərəb Əmirlikləri (BƏƏ) Dubay Məhkəmələri Departamentinin Baş di-






rektoru Əhməd Səid bin Həzimin rəhbərlik etdiyi nümayəndə heyəti Azərbaycan Respublikasına səfəri çərçivəsində Qəbələ rayonuna gəlmişdir. Qonaqları Qəbələdə rayon icra hakimiyyətinin başçısı Səbuhi Abdullayev qarşılamışdır. Qonaqlar rayonun turizm sektoru və istehsal müəssisələrinin fəaliyyəti ilə yaxından maraqlanmışlar.

Nümayəndə heyətinə eyni zamanda Qəbələ şəhərinin tarixi, rayonda sosial-iqtisadi inkişaf proqramı çərçivəsində həyata keçirilən müxtəlif layihələr və bütün sahələrdə nəzərə çarpan uğurlar haqqında ətraflı məlumat verilmişdir. Qeyd olunmuşdur ki, Qəbələ təbii gözəlliyi, əməksevər insanları ilə respublikamızda seçilən bölgələrdəndir. Rayonda sosial-iqtisadi inkişafın nəticəsi olaraq bu gün Qəbələ beynəlxalq tədbirlərə ev sahibliyi edir. Rayonun turizm infrastrukturunda mövcud olan yüksək xidmət və açıq turizm potensialı buraya gələn turistlərin sayının ildən-ilə artmasına təkan verir. Sonra qonaqlar Dağ-Xizək Yay-Qış İstirahət Kompleksi, «Qafqaz Resort» otel kompleksi, Bum qəsəbəsindəki stend və ox atıcılığı kompleksi, istehsal müəssisələrindən «Beltmann» Piano fabrikiilə tanış olmuşlar.

Qonaqların tanış olduqları hər bir müəssisə və obyekt haqqında onlara ətraflı məlumat verilmişdir.

Qəbələ rayonu ilə tanışlıqdan məmnunluğunu ifadə edən Dubay Məhkəmələri Departamentinin Baş direktoru Əhməd Səid Bin Həzimin bölgənin onun üçün böyük maraq doğurduğunu ifadə etmişdir.

Nümayəndə heyətinə xatirə hədiyyələri təqdim olunmuşdur.

**Zahir KƏRİMOV,**
**rayon icra hakimiyyətinin informasiya təminatı və təhlili sektorunun aparıcı məsləhətçisi.**
**Fotolar S. Umuyevindir.**

# Beynəlxalq Sülh Günü

Sülh dedikdə əmin-amanlıq, sakitlik, müharibə, münaqişənin olmadığı bir həyat başa düşülür. Tarixdən bəllidir ki, insanların əksər çoxluğu təhlükəsiz həyat arzulamış, sülhə birgə yaşayışa can atmışlar. Bəşər övladının əsas vəzifələrindən biri sülhpərvər olmaq, sülh uğrunda mübarizə aparmaq, kin və nifrətdən uzaq olmaq, əmin-amanlıqdan məhrum olmuş insanlara kömək etməkdir. Dünyada zorakılığın qarşısı yalnız bəşəriyyətin sülh naminə birliyi ilə alına bilər

Sülh sözünü müharibə və münaqişə sözlərinin əksi kimi qəbul etmək olar. Quranın müxtəlif ayələrində müharibələrdən çəkinmək, sülhə meyl etmək dəfələrlə vurğulanmışdır. Bəşəriyyətdə tarixi boyu çoxlu müharibələr baş vermişdir. Bu müharibələr lap qədim zamanlardan bu günədək tayfa ittifaqları, xalqlar və dövlətlər arasında getmişdir. Bu müharibələr ədalətli və ədalətsiz xarakter daşımışdır.

Hər il sentyabrın 21-i Beynəlxalq Sülh Günü kimi qeyd olunur. BMT bu günü 1981-ci ildə təsis edib.

İlk Sülh Günü 1981-ci ilin sentyabrında qeyd olunub. Lakin 2001-ci ildə Birləşmiş Krallıq tərəfindən təklif olunan qətnamə ilə 2002 cı ildə BMT Sülh Günü üçün 21 sentyabr tarixini dəqiq tarix kimi müəyyənləşdirib və bu tarixi ümumdünya atəşkəs günü elan edib.

Əbədi mövzu olan sülh mövzusu bu gün torpaqlarının 20 faizi işğal altında qalan, bir milyondan çox qaçqın və məcburi köçkünü olan Azərbaycan üçün də xüsusi əhəmiyyət kəsb edir. Ən sülhsevər xalqlardan biri olan, dünyanın ən tolerant ölkəsinin vətəndaşları Ermənistanın ölkəmizə təcavüzü nəticəsində uzun illər min əzab-əziyyətlə qurduqları evəşiklərindən məhrum olublar. Ümummilli lider Heydər Əliyev böyük müdrikliklə qan tökülməsinin qarşısını aldı. 1994-cü ilin mayında atəşkəs haqqında müqavilə imzalandı, müharibə dayandırıldı, ölkədə sabitliyə nail olundu. Bu, həm də dövlətimizin sülh arzusunun ifadəsi idi.

Bu gün qüdrətli orduya malik Azərbaycan və onun Prezidenti, Ali Baş Komandan İlham Əliyev də xalqın sülh arzusunu ifadə edərək münaqişənin sülh yolu ilə, qan tökülmədən, beynəlxalq hüquq normaları çərçivəsində həlli istiqamətində əməli işlər görür. Biz əminik ki, bu gün düşmən tapdağı altında olan torpaqlarımız da sülh yolu ilə geri qaytarılacaqdır.

**Tərbiyə İSAYEVA,**
**rayon təhsil şöbəsinin metodisti.**

# YAP təşviqat qrupları seçicilərlə görüşür

Rayonun yaşayış məntəqələrində bir neçə gündür ki, Yeni Azərbaycan Partiyası tərəfindən prezidentliyə namizədliyi irəli sürülmüş Əliyev İlham Heydər oğlunun namizədliyini müdafiə etmək üçün partiyanın Qəbələ Rayon Təşkilatı üzrə yaradılmış təşviqat qrupları yerlərdə seçkiqabağı kampaniyaya başlamışlar. Artıq təşviqat qrupunun üzvləri 20-yə qədər kənddə seçicilərlə görüşmüşlər. Növbəti görüş Mirzəbəyli kəndində olmuşdur.



Cörüşdə Mirzəbəyli və İmamlı kəndlərindən 200-dən artıq seçici iştirak etmişdir.

Tədbiri təbliğat-təşviqat qrupunun üzvü Qüdrət Səmədov açmış və prezidentliyə namizəd İlham Əliyevin həyatı, onun siyasi fəaliyyəti haqqında seçicilərə geniş məlumat vermişdir. Məlumatda namizədin ötən seçkilərdən sonra rayonlarda, qəsəbə və kəndlərdə aparılan quruculuq işləri, abadlıq, elmi-texniki tərəqqi və xarici siyasət sahəsindəki nailiyyətlərdə əməyi xüsusi olaraq qeyd edilmişdir.

Görüşdə təbliğatçı Sədaqət Bayramova istər respublikada, istərsə də rayonda seçki qanunçuluğu, seçkilərin demokratik şəraitdə keçirilməsi ilə əlaqədar yaradılmış şəraitlə bağlı tədbir iştirakçılarını məlumatlandırmışdır.

Tədbirdə Mirzəbəyli kənd sakini, müəllim İsmayıl Hüseynov, Tehran Qocayev, kənd ağsaqqalı Daşdəmir Zakirov, İmamlı kəndindən Akif Əzizov və Rövşən İbrahimov prezidentliyə namizəd İlham Əliyevi dəstəklədiklərini bildirmişlər.

**Oqtay MƏMMƏDOV.**

# Səsvermə məntəqələri seçkilərə tam hazırdır

Ötən hər bir gün bizi ölkəmizin və xalqımızın həyatında çox mühüm əhəmiyyət kəsb edən Azərbaycan Respublikası Prezidentinin seçkilərinə daha da yaxınlaşdırır. 2013-cü oktyabrın 9-na təyin edilmiş prezident seçkiləri növbəti 5 ildə Azərbaycanın inkişaf istiqamətlərini, perspektivlərini müəyyənləşdirəcək və ölkəmizin mövqeyini, iradəsini ifadə etmək və qərar vermək şansı yaradacaqdır. Şübhəsiz ki, ona kütləvi marağın mahiyyəti də məhz bu amilin təsir gücündən irəli gəlir. Prezident seçkiləri, həmçinin vətəndaşların ictimai-siyasi fəallığının artması ilə müşahidə olunur. Ümumiyyətlə, dövlət müstəqilliyinin mövcud olduğu 22 il ərzində respublikamızda bir neçə seçki keçirilib və onların hər biri ictimai-siyasi əhəmiyyətinə görə tariximizə mühüm hadisə kimi daxil olmuşdur. Çox müsbət haldır ki, bu illər ərzində istər xalqımızın seçki təfəkkürünün formalaşmasında, istərsə də seçkilər sahəsində mükəmməl hüquqi bazanın yaradılmasında mühüm nailiyyətlər əldə edilmişdir. Seçkilərlə bağlı qeyd etdiyim müsbət amilləri Qəbələ seçicilərinə də şamil etmək olar.

Məlumat üçün bildirim ki, 116 saylı Qəbələ seçki Dairəsi seçkilərin keçirilməsi sahəsində kifayət qədər böyük təcrübə qazanmışdır. İndiyədək Qəbələdə keçirilən seçkilərdə qazanılmış təcrübə imkan verir ki, qarşıdan gələn prezident seçkiləri də azad, şəffaf, ədalətli və demokratik səviyyədə təşkil edilsin.

**(Ardı 6-cı səhifədə).**